# Vətəndaşın dövlətlə ünsiyyəti

## Və ya ictimai nəzarətin effektiv təşkili yolları

**Bakının qədim "Sovetski" məhəlləsində məscid söküləndə, İçərişəhər divarları yanında qanunsuz tikintilər həyata keçiriləndə, Qarabağ qazisinin evi bank tərəfindən müsadirə ediləndə, Şamaxı rayonunda məktəbin qəzalı vəziyyəti efirdə nümayiş olunanda, ölkə başçısı və Birinci vitse-prezident xəbərlərdən məhz vətəndaşların fəallığı, media və sosial şəbəkələrin aktiv fəaliyyəti və reaksiyası nəticəsində məlumat əldə etdilər.**

Cəmiyyətin fəallığı, son nəticədə cavabdeh şəxsləri öz işlərini vicdanlı və məsuliyyətli yerinə yetirməyə sövq etməklə ictimai nəzarətin vacibliyini bir daha gündəmə gətirdi. Baxmayaraq ki, ölkə başçısı keçirdiyi müşavirələrdə, ayrı-ayrı görüşlərində ictimai nəzarətin əhəmiyyətliliyini təkrar-təkrar vurğulayır, ancaq bütün dövrlərdə olduğu kimi, yerlərdə məmur özbaşınalığı, vəzifədən sui-istifadə və s. neqativ hallarla cəmiyyət hələ də üzləşir.

"Ölkədə neqativ halların qarşısının alınması üçün ictimai nəzarət olmalıdır. İctimai nəzarət olmasa, biz istədiyimizə nail ola bilmərik"- deməklə Prezident vətəndaşları daha da fəal olmağa, xoşagəlməz hallarla üzləşəndə məlumat verməyə çağırır: "Harada ki, insanları narahat edən məsələlər, nöqsanlar, çatışmazlıqlar var, onlar deyilməlidir. Bütün dövlət məmurları bilməlidirlər ki, onlar vətəndaşlara vicdanla xidmət etməlidirlər, dövlət maraqlarını hər şeydən üstün tutmalıdırlar və ciddi nəzarət olmalıdır - dövlət nəzarəti və ictimai nəzarət". Ölkə başçısı haqlı olaraq mühüm iqtisadi dəyişikliklər dövründə, yaxud böhran situasiyalarında ictimai nəzarətin güclü olmasının vacibliyini vurğulayır.

**Publisist Yücəl Koçun** "Prezident İlham Əliyev cəmiyyətin hansı dəyişiklik arzuladığını bilir və sözün əsl mənasında, bu məsələdə dinləmək siyasətini genişləndirib. Fərqindədir ki, liderə və dövlət başçısına dəstək olan yeganə amil öz xalqı ilə ittifaq içində olmaqdır. Sosial və digər bütün növ mediadakı xəbərləri, xalqdan gələn səsləri və hətta ən ucqarlardakı səsləri belə eşitmək, bu səslərə qulaq asmaq və mövcud vəziyyətdən sui-istifadə etmək istəyən böyük güclərin narazılıqlardan istifadə etməsinə imkan verməmək bir siyasətçi və dövlət başçısı üçün misilsiz bacarıqdır"- deyə Türkiyənin nüfuzlu "Türkiye" qəzetində yazdığı məqaləsi prezidentin ictimaiyyətin səsinə verdiyi önəmin ölkə sərhədlərindən kənarda da əks-sədasının göstəricisidir.

### İCTİMAİ NƏZARƏTİN FUNKSİYASI

Dövlətin nəzarəti cəmiyyətin bütün sferalarında və vətəndaşların həyatında təkzibolunmazdır. Bəs ictimai nəzarətin funksiyası nədir? Hər şeydən əvvəl ictimai nəzarət vətəndaş davranışının formalaşması və inkişafına, vətəndaşların öz dövlətlərinin fəaliyyətinə inamının yüksəlməsinə, həmçinin dövlətin vətəndaş cəmiyyəti institutları ilə qarşılıqlı münasibətlərini təmin edir. İctimai nəzarətin şəraiti yaxşılaşdırmaq missiyası vətəndaş təşəbbüslərinin reallaşması, insanların hüquq və azadlıqlarına yönəlməklə, dövlət orqanlarının fəallığının effektliliyinin artmasına, yerli idarəetmə orqanlarının fəaliyyətinə təsir edir.

Qeyd edək ki, ölkə Konstitusiyasında və bir çox qanunvericilik aktlarında, "İctimai iştirakçılar haqqında" qanunda ictimai nəzarətin həyata keçirilməsinin əsas məqsədi dövlət orqanlarının üzərində şəffaflıq hesabatının tətbiq edilməsi ilə bağlıdır. Belə ki, dövlət orqanları ilə vətəndaş cəmiyyəti arasında daimi dialoqun təmin edilməsi, ictimai şuraların yaradılması, ictimai müzakirələrin həyata keçirilməsi və ictimai rəyin öyrənilməsi əsas istiqamətlərdir. Cəmiyyətin mövqeyi isə təbii ki, KİV-də, Milli Məclisdə, vətəndaş cəmiyyəti təşkilatlarında, müxtəlif ictimai müzakirələrdə özünü göstərməlidir.

### MİLLİ MARAQ KƏSB EDƏN MƏSƏLƏLƏRDƏ AKTİVLİK

**Millət vəkili Tahir Mirkişili** hesab edir ki, Milli Məclisdə "İctimai nəzarət haqqında" qanun layihəsinin müzakirəsi də məhz məsələnin əhəmiyyətliliyindən irəli gəlib. Millət vəkili ümumiyyətlə, dünyada ictimai nəzarətin həyata keçirilməsinin və vətəndaşların ictimai təşəbbüslərinin bir neçə forması olduğunu bildirir: "Məsələn, təşəbbüslə çıxış etmək, təşəbbüsləri yerli orqanlara çatdırmaq və yaxud təmsil olunduqları qurumlarda bunu açıq şəkildə müzakirə etmək və s. Digər istiqamətlər sırasına media vasitəsi ilə təşəbbüslərlə çıxış etmək, ölkədə fəaliyyətdə olan elektron xidmət və elektron müraciətlər də daxildir ki, bunlar kifayət qədər geniş yayılıb. Bu gün istənilən dövlət orqanına, hətta dövlət başçısına belə, elektron formada müraciət etmək mümkündür".



Millət vəkili sosial şəbəkələrdə dövlət qurumlarının təmsil olunmasının da vətəndaşların fikirlərini bildirməsi üçün əlavə imkanlar yartadığını deyir: "Hazırda rəqəmsal dünyada yaşadığımız üçün insanlar heç zaman olmadığı qədər informasiya daşıyıcısı, internetə əlçatandırlar. Bu mənada, insanlar istənilən bir məlumatı gördüyü zaman bölüşmək, nəzarət etmək, bir-birinə xəbər vermək kimi vasitələrdən istifadə edə bilirlər. Yəni, vətəndaşlardan daha çox tələb olunanlar - aktiv olmaq, müraciət etmək, fikirlərini bildirmək, ideyalarını bölüşmək və yaxud ölkə başçısının apardığı iqtisadi və sosial islahatlara mane ola biləcək hər hansı bir baryeri gördüyü zaman bu barədə məlumat vermək və onları aradan qaldırmaq üçün dövlət qurumları ilə birgə əməkdaşlıq etməkdir". Millət vəkilinin sözlərinə görə, ictimai nəzarət əgər effektiv və konstruktivdirsə, milli maraqlara daha çox xidmət edə bilər.

### VƏTƏNDAŞ İŞTİRAKÇILIĞI

**Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası İcraiyyə Komitəsinin sədri Sahib Məmmədov** hesab edir ki, "ictimai nəzarət" dedikdə, prezident ilk növbədə vətəndaşların dövlət hakimiyyəti orqanları tərəfindən həyata keçirilən bütün fəaliyyətlərdə iştirak etməsini nəzərdə tutur: "Ola bilər, elə tədbirlər var ki, orda vətəndaşlar birbaşa öz istəkləri ilə iştirak etsinlər, ya da onları təmsil edən qurumlar, KİV-lər və ya QHT-lər vasitəsilə qatılsınlar. "Nəzarət" heç bir halda istənilən adamın cibindən bir vəsiqə çıxarıb, "mən sizi yoxlamağa gəlmişəm" kimi başa düşülməməlidir".



Ekspertin fikrincə, dövlətin həyata keçirilən böyük layihələri və proqramlarında, qanunların hazırlanmasında vətəndaş cəmiyyəti iştirak etməlidir. Yəni hər hansı bir fəaliyyət, proqram, layihə həyata keçirilirsə, onun haqqında vətəndaş cəmiyyəti və ya KİV-lər məlumatlar toplaya, çatışmazlıqlar barədə hesabatlar hazırlayıb göstərə bilərlər. Bununla bağlı yuxarı dövlət orqanlarına məlumat verə, hansısa bir problem varsa, onu ictimailəşdirə bilərlər: "Prezidentin əslində nəzərdə tutduğu və istədiyi budur. Yəni, vətəndaşlar fəal olsunlar, dövlətin həyata keçirdiyi bir layihə, proqram, yaxud dövlət orqanlarının hazırladığı bir sənəddə problem varsa, onunla bağlı öz fikir və rəylərini bildirsinlər. Bunu birbaşa müraciət etmək huququndan istifadə etmək və ya ictimailəşdirmək vasitəsilə də etmək olar. Yetər ki, burda qərəzçilik olmasın, səriştəli yanaşma nümayiş etdirilsin və s." İctimai nəzarətin milli maraqların müdafiəsində roluna gəlincə, hüquq müdafiəçisi hesab edir ki, hər bir vətəndaşın borcu Azərbaycanın dövlət maraqlarını müdafiə etməkdir: "Milli maraqlara xələl gətirən hansı hərəkətlər varsa, ictimai nəzarət və dövlət orqanları vasitəsilə aşkara çıxarılıb ifşa olunmalıdır. Amma burda vətəndaş iştirakçılığı da vacibdir. Məsələn, kimsə bir qurum yaradıb dələduzluq edir, iş düzəltmək və ya xaricə göndərmək adı ilə insanları aldadıb pul alır. Bəzən insanlar aldanaraq insan alverinin qurbanına çevrilirlər. Yaxud son dövrlərdə daha da aktuallaşmış miqrant alverinin qurbanı olurlar. Bu məsələlərdə, əlbəttə ki, ictimaiyyətin rolu vacibdir. Vaxtlı-vaxtında belə faktları bildikdə, ya dövlət orqanlarına müraciət etməklə, ya da KİV-lərdə və ya sosial şəbəkədə ictimailəşdirməklə dövlətə bu sarıdan kömək etməlidirlər. Bu da öz növbəsində bir ictimai nəzarətdir".

### DÖVLƏT QURUMLARI İLƏ BİRGƏ ƏMƏKDAŞLIQ

İctimai nəzarətin əsas subyektlərinin QHT-lər, media və vətəndaşların özləri olduğunu deyən **Konstitusiya Araşdırmalar Fondunun rəhbəri Əliməmməd Nuriyevə** görə, ictmai nəzarət birbaşa vətəndaşlar və onların yaratdığı qurumlar tərəfindən həyata keçirilməlidir: "Ona görə prezident "bütün problemlərlə bağlı bizə məlumat verin"- deyə vətəndaşlara səsləndi. İctmai nəzarətin həyata keçirilməsində ümumi maraq odur ki, fıravanlıq olsun, problemlər az olsun, problemlərin həlli ilə bağlı təkliflər verilsin. Bu, eyni zamanda, kənar nəzarətdir, yəni hər hansı tabeli bir münasibətə əsaslanan nəzarət deyil. Əgər hər hansı bir dövlət orqanının fəaliyyəti ilə bağlı məlumat verir və ya tənqid edirlərsə, onlar həmin problemləri daha azad şəkildə həll etməyə malikdirlər".



Hüquq müdafiəçisi hesab edir ki, istənilən halda vətəndaş cəmiyyəti, media tərəfindən ictimai nəzarətin həyata keçirilməsi ilə bağlı müəyyən resurslara ehtiyac var: "Burda peşəkarlıq da vacib məsələdir. Yəni, elə olmamalıdır ki, ictimai nəzarəti həyata keçirərkən kim nə düşünürsə, onu danışsın. Digər tərəfdən, ictimai nəzarətin həyata keçirilməsi üçün monitorinq üsulunun tətbiqi lazımdır. Hazırda ölkədə islahatlar həyata keçirilir. Bu məsələlərə bir qədər həssaslıqla yanaşmaq lazımdır. İslahatlara hər zaman müqavimət olub. İslahatların qarşısını o məmurlar alır ki, onlar şəffaflıqdan və hesabatlılıqdan qaçırlar. Çünki fəaliyyətlərini yeni dövrün tələblərinə uyğun qura bilmirlər. Bu müqavimətin qarşısını almaq üçünsə vətəndaş cəmiyyəti, ictimai nəzarət güclü olmalıdır ki, bütövlükdə ölkə başçısının elan etdiyi hədəflərə tam nail ola bilək".

Hüquq müdafiəçisi hesab edir ki, ictimai nəzarətin həyata keçirilməsi ilə bağlı beynəlxalq təcrübəni də ölkəmizə tətbiq etmək mümkündür. Belə ki, rəqamsal hökumətə keçid baş verir və ictimai nəzarətin daha da güclənməsinə yeni imkanlar yaradan innovativ üsullar meydana çıxır: "Artıq Azərbaycanda hökumət platforması var. Burda həm dövlət orqanları, həm də vətəndaş cəmiyyəti birlikdə işləyə bilərlər. O yerdə ki qərarların hazırlanması prosesində birbaşa iştirak var, onlar daha keyfiyyətli hazırlanacaq. Həmçinin birgə nəzarət və birgə monitorinq sisteminin qurulması ilə bağlı addımlar atılmalıdır ki, bu da yeni qərarların qəbuluna, keyfiyyətli icrasına və boşluqların aradan qaldırılmasına kömək edər".

### MEDİANIN İCTİMAİ NƏZARƏTDƏ ROLU

Belə vəziyyətdə KİV institutları dövlət strukturları ilə vətəndaş cəmiyyəti arasında əsas kommunikator rolunu oynayır. KIV-in nəzarəti - belə konstruktiv, məsuliyyətli mövqe yerli idarəetmə orqanlarına, insanları narahat edən problemlərin daha effektiv həllinə kömək edir.

"Hazırda ənənəvi KİV-in iki mühüm istiqaməti var ki, onun da biri ictimai nəzarət funksiyasını həyata keçirməkdir"- deyən **Azərbaycan Mətbuat Şurasının sədr müavini Müşfiq Ələsgərlinin** sözlərinə görə, Konstituyamızda KİV-in bu funksiynı yerinə yetirməsindən ötrü maddələr yer alıb: "Azərbaycan demokratik respublikadır və bu ölkədə KİV-in öz funksiyasını yerinə yetirməsi üçün kifayət qədər şərait var. Problem ondadır ki, bəzən manipulyativ media bu sektorda özünə yer tuta bilir. Bu medianın məqsədi isə cəmiyyəti faydalı informasiya ilə təmin etmək yox, özünün müəyyən maddi və mənəvi maraqlarını güdməkdən ibarətdir. Bu baxımdan, Azərbaycan jurnalistikasının işi həm manipulyativ medianın maraqlarını zərərsizləşdirmək, həm də ictima nəzarət funksiyasını yerinə yetirməkdir. Təəssüf ki, bu heç də asan deyil".



Mətbuat Şurasının təcrübəsindən danışan media ekspertinin sözlərinə görə, ictimai nəzarət funksiyasını yerinə yetirilməsinə müəyyən manelər də olur. Belə ki, fəaliyyəti şəffaf olmayan şəxslərin və manipulyativ mediaya dəstək olan məmurların mövqəviməti mövcuddur: "Reket" media adlandırdığımız medianın kökünü araşdıranda, çox vaxt onların arxasından məmurlar çıxır. Halbuki, məmurların peşəkar media ilə əməkdaşlığının yüksək səviyyədə olması hər kəs üçün uğurlu nəticələr ortaya qoya bilər".

Hazırda ölkədə aparılan islahatlar çərçivəsində vətəndaşların dövlət idarəçiliyinə yaxından cəlbi, vətəndaşlarla vəzifəli şəxslərin təmaslarının intensivləşdirilməsi, insanların rəy və təkliflərinin ümumiləşdirilməsi, nəzərə alınması və problemlərinin həlli yollarının tapılması istiqamətində işlər görülür. Heç şübhəsiz, bu xətt ulu öndər Heydər Əliyevin idarəçiliyi dönəmində Azərbaycanda ictimai sektorun inkişaf etdirilməsi və vətəndaş cəmiyyətinin formalaşdırılması, insanların dövlətin idarə edilməsində rolunun artırılması, həmçinin vətəndaş-dövlət ünsiyyətinin gücləndirilməsi istiqamətində atılan fundamental addımın məntiqi davamıdır.

**Təranə Məhərrəmova**
**Məqalə Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının "SƏLİS Jurnalist" müsabiqəsinə təqdim olunur**